| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *05.04.2013* |
| Qeydiyyat nömrəsi | *04/Q* |
| Adı | *“Dəmir yolu nəqliyyatında sərnişin daşımaları üçün elektron bilet satışı üzrə inzibati reqlament”in təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *17.04.2013* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.020.010* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201304050004* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *16.04.2013* |

“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

**qə**rara al**ı**r:

1. “Dəmir yolu nəqliyyatında sərnişin daşımaları üçün elektron bilet satışı üzrə inzibati reqlament” təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə (Aydın Süleymanlı) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Bu qərarın icrasına nəzarət nazir müavini Musa Pənahova həvalə edilsin.

Nazir Ziya Məmmədov

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin
2013-cü il 5 aprel tarixli 04/Q nömrəli qərarı ilə
təsdiq edilmişdir

# Dəmir yolu nəqliyyatında sərnişin daşımaları üçün elektron bilet satışı üzrə inzibati reqlament

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: Dəmir yolu nəqliyyatında sərnişin daşımaları üçün elektron bilet satışı.

1.2. Elektron xidmətin məzmunu: bu xidmət dəmir yolu nəqliyyatında sərnişin daşımaları üçün elektron bilet satışı ilə bağlı qaydaları müəyyən edir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:
1.3.1. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;
1.3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 16.3-cü bəndi;
1.3.3. "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən həyata keçirilən ölkədaxili sərnişindaşıma xidmətlərinin tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 2011-ci il 31 yanvar tarixli 3 nömrəli Qərarının 1-ci, 2-ci, 4-cü və 5-ci bəndləri.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - "Azərbaycan Dəmir Yolları" QSC).

1.5. Elektron xidmətin digər icraçıları: yoxdur.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: tam.

1.7. Elektron xidmətin icra müddəti: elektron xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: istifadəçi elektron bilet əldə edir.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv.

2.2. Elektron xidmət üzrə ödəniş: sərnişindaşıma xidmətlərinin tarifləri "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən həyata keçirilən ölkədaxili sərnişindaşıma xidmətlərinin tariflərinin

tənzimlənməsi barədə" Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 2011-ci il 31 yanvar tarixli 3 nömrəli Qərarının 1-ci, 2-ci, 4-cü və 5-ci bəndlərinə əsasən müəyyən edilir. Ödəmə üsulu: ödəniş kartı vasitəsi ilə.

2.3. Elektron xidmətin istifadəçiləri: fiziki şəxslər.

2.4. Elektron xidmətin təqdim olunma yeri: http://www.railway.gov.az

2.5. Elektron xidmət barədə məlumatlandırma:
- internet ünvanı: http://www.e-gov.az; http://www.railway.gov.az
- elektron poçt: webmaster@railway.gov.az
- telefon: (+99412)499-40-59, (+99412)499-60-18

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması: elektron xidmətin göstərilməsi üçün şəxsiyyəti təsdiq edən sənəd tələb olunur. İstifadəçi adını, soyadını, atasının adını, vətəndaşlığını, doğum tarixini, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsini "Sərnişinlər barədə məlumatlar" bölməsinə daxil edir.
Qeyd: elektron xidmətin yerinə yetirilməsi üçün istifadəçi ödəniş kartına malik olmalıdır.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:
3.1.1. sorğunun formalaşdırılması:
- istifadəçi elektron xidmətin təqdim edildiyi internet ünvanının (reqlamentin 2.4-cü bəndi) "Elektron bilet satışı" bölməsində qeydiyyatdan keçərək sistemə daxil olur;
- açılan pəncərədə gediş tarixi, gediş stansiyası, təyinat stansiyası, qatar, vaqonun növü, biletlərin sayı seçilir və "Axtarış" düyməsi sıxılır. Qeyd edilən məlumatlar və sərnişindaşıma xidmətlərinin tarifləri ekrana cədvəl şəklində çıxarılır;
- "Sərnişinlər barədə məlumatı daxil edin" düyməsi sıxılır və müvafiq məlumatlar (istifadəçinin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, vətəndaşlığı, doğum tarixi) daxil edilir;
- "Qeydə alınsın" düyməsi sıxılır;
- "Gediş haqqının ödənilməsi" düyməsi sıxılır və növbəti pəncərədə ödəniş kartının sahibinin adı və soyadı, kartın nömrəsi, bitmə tarixi, 3 rəqəmli CVV2/CVC2 kodu qeyd olunmaqla ödəniş aparılır.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:
3.2.1. sorğunun yerinə yetirilməsindən imtina halları: istifadəçi şəxsiyyətini təsdiq edən sənəd və ödəniş kartı haqqında məlumatları səhv daxil etdikdə, habelə hesabında elektron biletin alınması üçün kifayət qədər vəsait olmadıqda sorğunun yerinə yetirilməsindən imtina edilir.

3.2.2. sorğunun qəbulu: imtina üçün əsaslar olmadıqda sorğu qəbul olunur.

3.3. Sorğunun icrası: ödəniş aparıldıqdan sonra elektron bilet ekrana çıxarılır. İstifadəçi elektron bileti çap edə və yaxud elektron poçt ünvanına istiqamətləndirə bilər.
Qeyd: qatarın yola düşməsinə bir saat qalanadək istifadəçi dəmiryol bilet kassasına yaxınlaşaraq şəxsiyyətini təsdiq edən sənədi və ya elektron bileti təqdim etməklə gediş sənədini (bileti) alır. Bileti və şəxsiyyətini təsdiq edən sənədi vaqon bələdçisinə təqdim etdikdən sonra istifadəçi qatara minir.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət: elektron xidmətin yerinə yetirilməsinə nəzarəti “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Məlumat Hesablama Mərkəzinin Kommunikasiya və İnformasıiya Texnologiyaları şöbəsi həyata keçirir.

3.4.1. nəzarət forması: daxil olan sorğuların avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi;

3.4.2. nəzarət qaydası: monitorinq nəticəsində sorğuların qəbulu, icra müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.5.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat: istifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada və məhkəməyə şikayət edə bilər;

3.5.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: inzibati qaydada verilən şikayət “İnzibati icraat haqqında” 2005-ci il 21 oktyabr tarixli 1036-IIQ nömrəli Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə, məhkəməyə verilən şikayət Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olmalıdır;

3.5.3. şikayətin baxılma müddəti: inzibati orqana verilən şikayətə “İnzibati icraat haqqında” 2005-ci il 21 oktyabr tarixli 1036-IIQ nömrəli Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində, məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində müəyyən olunmuş müddətdə baxılır.